# Mədəni-sosial fəaliyyətimiz

Siz universitetimizdə bilik almaqla yanaşı həyata da hazırlanacaqsınız. Tələbə həyatınızın maraqlı olması üçün bütün kollektivimizlə sizə yardımçı olacağıq. Sizlərin iştirakı ilə müxtəlif tədbirlər (yazıçılarla, sənət adamları ilə görüşlər, tamaşalar hazırlamaq, teatrlara getmək, ölkəmizin gözəl guşələrinə səfərlər, oradakı maddi-mədəniyyət nümunələri ilə tanışlıq, filmlərin, tamaşaların, yeni əsərlərin müzakirəsi və s.) keçiriləcək.








**AZ1096**
**Məhsəti küçəsi, 41**
**Bakı, Azərbaycan**

(994 12) 421 10 93 — 228 (daxili)
(994 12) 421 79 16 — 228 (daxili)
azlanguage@khazar.org
www.khazar.org

XƏZƏR UNİVERSİTƏSİ · BAKI · 1991

**KHAZAR UNIVERSITY**

**Hər gün, hər saat mükəmməlliyə doğru!**

---

- ***Azərbaycan dili və ədəbiyyatı (filologiya)***
- ***Azərbaycan dili və ədəbiyyatı müəllimliyi***



# Azərbaycan dili və ədəbiyyatı

***Dilini, ədəbiyyatını, milltəini sev, öyrən, öyrət!***

## Niyə biz?



Dil və ədəbiyyat istənilən bir xalqın mənəvi varlığının təsdiqidir.

Dilsiz və ədəbiyyatsız hər-hansı bir xalqı təsəvvür etmək mümkün deyil. Biz yüksək elmi səviyyəli,təcrübəli müəllimlərimiz, zəngin kitabxana və internet resurlarımızla sizə xalqımızın dilini və ədəbiyyatını, eləcə də dünya ədəbiyyatı və dillərini öyrənmək, öyrətmək üçün yardımçı olacağıq.

## İxtisaslarımız

- *Azərbaycan dili və ədəbiyyatı (filologiya)*
- *Azərbaycan dili və ədəbiyyatı müəllimliyi*

Hər iki ixtisasda tələbələrimizə dilçiliyin və ədəbiyyatşünaslığın ümumi-nəzəri əsaslarından başqa ana dilimizin bölmələrini, inkişaf mərhələləini, qrammmatik özəlliklərini, ədəbiyyatımızın keçdiyi tarixi yolu, ayrı-ayrı elmi-ədəbi şəxsiyyətlərin həyatını, fəaliyyətini və yaradıcılığını geniş şəkildə öyrədəcəyik.



Azərbaycan və dünya ədəbiyyatının ən məşhur əsərləri ilə tanışlıq imkanı yaradacağıq.

“Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”ni bitirənlər fənn biliklərindən əlavə pedaqoji-metodiki bilik və bacarıqları da dərindən mənimsəyərək peşəkar müəllim kimi yetişəcəklər.

## Məqsədimiz

Hər iki ixtisas üzrə Azərbaycan dili və ədəbiyyatını, o cümlədən, Dünya ədəbiyyatını tədris edən peşəkar müəllimlər, dil və ədəbiyyatın müxtəlif problemlərini araşdıran yüksək səviyyəli filoloqlar hazırlamaqdır.



Bu ixtisasları bitirənlər dövlət və özəl orta məktəblərdə, qəzet və jurnallarda, radio və televizayalarda, ali məktəblərdə, elmi-tədqiqat institutlarında və s. yerlərdə çalışacaqlar.

